

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 dekabr 2024-cü il №91 (2902) https://mod.gov.az Qiyməti 30 qəpik


*Təlim*

## Praktiki vərdişlər döyüş hazırlığının əsasıdır



*Payızın yağışlı, soyuq səhəridi. İşğaldan azad edilmiş ərazilərimizdə axşamdan dağların zirvələrinə yağan qarı qışın müjdəsi də hesab etmək olar. Çünki dağlara erkən düşən qar bu il qışın sərt keçəcəyindən xəbər verir. Bunu dəfələrlə belə hallarla üzləşmiş, belə sərt iqlimi olan ərazilərdə Vətənimin müdafiəsinə dayanan hərbi qulluqçularımızdan da eşitmək mümkündür.*

İşğaldan azad edilmiş ərazilərə keçmək üçün nəzarət buraxılış posta yaxınlaşırıq. Burada həm mülki, həm də hərbi polisin birgə nəzarət etdiyi post yerləşdirilib. Avtomobildəki hərbçilər hərbi polis, mülki vətəndaşlar isə Daxili İşlər Nazirliyinin polis əməkdaşları tərəfindən yoxlanılır. Dövlətimizin qoyduğu qaydalara və onun tələblərinə əsasən, işğaldan azad edilmiş ərazilərə daxil olmaq üçün (icazənin) portalda adlarımızın keçdiyi təsdiq olunduqdan sonra yolumuza davam edirik.

İkinci Qarabağ müharibəsində tarixi qələbədən sonra Şuşaya çəkilən "Zəfər yolu" ilə əvvəlcə Füzuli şəhərinə yaxınlaşırıq. Şəhərin girişində qardaş Özbəkistan Respublikasının inşa etdiyi Mirzə Uluqbəy adına Füzuli şəhəri 1 nömrəli tam orta məktəbi diqqətimizi cəlb edir. İki mərtəbəli, müasir dövrün tələblərinə cavab verən memarlıq üslubuna görə də zövqlə tikilmiş bu məktəb binası artıq şagirdlərin ixtiyarındadı. Füzuli köçkünlərinin ilk qayıdışından sonra yeni binaların da inşası davam edir. Burada gedən tikinti işlərinin sürətlə davam etdiyini gördükcə adam özündən ixtiyarsız qürurlanır. 30 ilə yaxın düşmən işğalında qalan şəhərin və kəndlərin dağıdılmış evlərinin ancaq izləri qalıb. Erməni vandalizminin acı nəticələrini aradan qaldırmaq üçün biz hələ uzun illər sərf edəcəyik.

(Ardı 3-cü səhifədə)

## Hərbi təhsil ordu quruculuğunun yeni mərhələsində

Ordu quruculuğunun mühüm tərkib hissələrindən biri olan hərbi təhsil ordunun zabit kadrları ilə komplektləşdirilməsində, həm də ordunun nizami ordu kimi formalaşmasında, qüdrətlənməsində müstəsna əhəmiyyətə malikdir. Ötən əsrin əvvəllərində - Azərbaycan Demokratik Respublikası dövründə də belə idi, Azərbaycanın ilhaqına son qoyulandan - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra da belə oldu, Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildikdən sonra da belədir. Bütün dövrlərdə Vətənimizin müdafiəsinin başlanğıcı ordu quruculuğu olub.

Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra (18 oktyabr 1991-ci il) dövlətçilik təsisatları yaradıldı. Ermənistanın elan etmədən başladığı ədalətsiz müharibə dövründə ordu quruculuğu prosesi ciddi çətinliklərlə əhatələnmişdi. Döyüşə-döyüşə formalaşan orduda zabit kadrları çatışmırdı, təchizat zəif idi, vahid komandanlıq yox idi, dövlətin ərazisini koordinasiya şəbəkəsi zəif olan yerli müdafiə batalyonları (taborları), əhali və polislər müdafiə edirdi. Zabit kadrları çatışmadığına görə müdafiəni hərbi tələblər səviyyəsində qurmaq mümkün olmurdu. Belə bir vaxtda dövlət idarəçiliyində də ciddi problemlər mövcud idi. Dövləti labüd iflasdan xilas etmək üçün böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın ciddi təkidi ilə hakimiyyətə qayıtdı. Azərbaycan dövlətçiliyi labüd parçalanmadan xilas edildi, ordu quruculuğunda yeni bir dövr başladı, yerli müdafiə batalyonları ləğv edildi, orduda vahid komandanlıq yaradıldı, silahla təchizat istiqamətində konkret tədbirlər görüldü, ordu nizami ordu kimi formalaşmağa başladı. Bunlar ordu quruculuğunun mahiyyətindən irəli gələn tələblər idi və yeni bir mərhələ kimi tarixləşdi.

Gənc orduda Hərbi Nizamnamələrin hərbi xidmətə tam tətbiq edilməsi ilə bir sırada tədris materiallarının məzmun baxımından yenilənməsi, təkmilləşdirilməsi, tədris materiallarının dövlətçiliyin tələbləri səviyyəsində yenidən işlənilməsi prosesinə başlanıldı. Ordunun peşəkar zabit kadrları ilə tam komplektləşdirilməsi üçün hərbi təhsildə mühüm islahatlar həyata keçirilməli idi...

(Ardı 7-ci səhifədə)




4-cü səhifədə
Hərbçilərimizin güvən dolu ayaq səsləri





5-ci səhifədə
Vətən naminə...





6-cı səhifədə
Şəkilin sözü





6-cı səhifədə
Sağlamlıq uğrunda döyüşən cəngavərlər: Hərbi hospitalın fədakar həkimləri

# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı inkişaf etdirilir



*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin rəisi general-polkovnik Yaşar Kadıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

Müdafiə naziri qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. İki qardaş ölkə arasında bütün sahələrdə olduğu kimi hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayıb. General-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyətini xüsusi qeyd edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Türkiyə nümayəndə heyətinə 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbədən sonra ordu quruculuğu istiqamətində aparılan uğurlu islahatlar barədə məlumat verilib.



General-polkovnik Y.Kadıoğlu isə öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Keçirilən birgə təlimlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyətə malik olduğu vurğulanıb.



Görüşdə, həmçinin hərbi əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da genişləndirilməsində bu cür görüşlərin zəruriliyi diqqətə çatdırılıb. Hər iki qardaş ölkənin hərbi qulluqçularının peşəkarlığının daha da artırılması məqsədilə birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi qeyd olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



# “SAT-SAS-2024” təlimi başa çatıb

Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə keçirilən "SAT-SAS-2024" birgə təlimi başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin sonuncu mərhələsində xüsusi təyinatlı qrupun dəniz yolu ilə şərti düşmən arxasına çıxarılması, hədəf obyektinin gizli müşahidəsi və basqını üzrə tapşırıqlar icra edilib.

Qardaş ölkənin Marmaris şəhərinin Aksaz dəniz bazasında keçirilən birgə təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.



# “Təməl dalğıc kursu”nun növbəti buraxılış mərasimi keçirilib

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq əmrinə əsasən, Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində "Təməl dalğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları və Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları iştirak edib.

Çıxış edənlər bu cür kursların keçirilməsinin hərbi qulluqçuların ixtisas səviyyəsinin, eləcə də döyüş hazırlığının artırılmasına mühüm töhfə verdiyini qeyd ediblər.

Bildirilib ki, kurs müddətində hərbi qulluqçular müxtəlif tapşırıqları yerinə yetirməklə peşəkar dalğıc bacarıqları əldə ediblər. Dalğıclar gəmi altına baxış, axtarış-xilasetmə əməliyyatları və digər vacib fəaliyyətləri həyata keçirərək praktiki təcrübə qazanıblar.




Hərbi qulluqçular "Təməl dalğıc kursu"nu müvəffəqiyyətlə başa vurublar.

# ANAMA: Ötən ay 4 min 707,4 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı aylıq məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində noyabr ayı ərzində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 456, tank əleyhinə 85 mina, 2 min 274 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.

Ümumilikdə ötən ay ərzində 4 min 707,4 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Azərbaycanla Səudiyyə Ərəbistanı arasında hərbi əlaqələr müzakirə edilib

*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının hərbi nümayəndə heyəti ilə görüşüb.*



Qonaqları salamlayan general-polkovnik Z.Həsənov onları Azərbaycanda görməkdən məmnunluğunu ifadə edib. Müdafiə naziri ölkələrimiz arasında dostluq və qardaşlıq prinsipi üzərində qurulan əlaqələrin inkişaf etdirilməsinə xüsusi önəm verildiyini və hər zaman Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət mərkəzində saxlanıldığını bildirib.

Müdafiə Nazirliyi xəbər verir ki, cari ilin 24-26 sentyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində Səudiyyə Ərəbistanının geniş tərkibdə nümayəndə heyəti ilə iştirakının yüksək qiymətləndirildiyi qeyd olunub.

Nazir Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilmiş ərazilərin minalardan təmizlənməsi ilə bağlı görülən tədbirlər barədə qonağı məlumatlandırıb və Səudiyyə Ərəbistanı tərəfindən bu işdə göstərilən dəstəyə görə qonağa təşəkkürünü bildirib. Qeyd edilib ki, Vətən müharibəsindən sonra minaların partlaması nəticəsində indiyədək zərər çəkən 382 nəfər mülki və hərbi qulluqçudan 70 nəfəri həlak olub.

Daha sonra general-polkovnik Z.Həsənov Bakıda Azərbaycan-Türkiyə-Səudiyyə Ərəbistanı arasında kəşfiyyat sahəsində üçtərəfli formatda keçiriləcək işçi görüşündə iştirakçılara uğurlar arzulayıb.

Ölkəmizə səfərindən məmnun olduğunu qeyd edən nümayəndə heyəti göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması münasibətilə general-polkovnik Z.Həsənovu təbrik edib, şəhid olanlara Allahdan rəhmət diləyib və onların yaxınlarına dərin hüznlə başsağlığı verib. Qonaq hərbi





nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin genişlənməsinə təkan verdiyini vurğulayıb.

Görüşdə hərbi, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Sonra qonaqlar Azərbaycan Ordusunun Baş Qərargahına gəlib. Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ilə görüşüb.

Görüşdə qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın daha da inkişaf edəcəyinə əminlik ifadə olunub. Tərəflər, həmçinin təcrübə mübadiləsinin əhəmiyyətini xüsusi vurğulayıb və maraq doğuran bir çox digər məsələlərə dair müzakirələr aparıblar.

# Praktiki vərdişlər döyüş hazırlığının əsasıdır

(Əvvəli 1-ci səhifədə)

Döyüşlər zamanı düşmən qəsəbəni əldə saxlamaq üçün var gücü ilə çalışdı, müqavimət göstərdi. Lakin onun bütün çabaları əbəs oldu. Çünki doğma torpaqlarının azad edilməsi uğrunda gərgin döyüşlərə qatılan xalqımızın igid oğulları düşmənə aman vermirdi. Onların misilsiz şücaətləri düşmənin müqavimətini qırdı. Hadrut qəsəbəsi düşməndən azad edildi.

**Dağların əhatəsindəki gözəl qəsəbə**

Hadrut hündür olmayan dağların əhatəsində, daha doğrusu, ətəklərində yerləşir. Burada da təmir-tikinti işləri davam edir. Müharibə zamanı buradakı evlər atılan mərmilərdən ciddi zədələnib, yaşayış üçün yararlı hala gətirilən evlər də çoxdu. Həbçilərin sözlərinə görə burada şəhər döyüşləri də olub. Hadrut qəsəbəsində və dağın arxasında yerləşən Tuğ kəndində, cəbhənin cənub istiqamətində düşmənin ən vacib, strateji məntəqələri olub. Çünki düşmən əsas hərbi gücünü də burada toplayıbmış. Bu önəmli yüksəkliklər və yaşayış məntəqələri azad edildikdən sonra döyüşçülərimizin Şuşaya yolu açılıb...

Qəsəbənin mərkəzindən məhəllələrə yollar ayrılır. Bu yollar daşlı-kəsəklidi, ağaclardan ömrünü başa vurub tökülən qızılı yarpaqlar da yolun üstünü örtüb. Bəzi yerlərdə maşınların təkərləri altın-



dan küləyin sovurduğu xəzəl yolun kənarında qalaqlanıb. Baxımsız qalan cığırları da kol-kos örtüb. Burada qızılı payızın gözəlliyi adama xoş ovqat bəxş edir.

Zabit Faiq Şükürovla xidmət yerində görüşdük. Hündürboy, qarayanız zabitin çöhrəsində qətiyyət və məğrurluq sezilirdi. Zabit bölmələrin hazırda günün nizam qaydalarına uyğun olaraq dərs yerlərində olduğunu söylədi...

**Taktiki məşğələ yerində**

Baş leytenant Nihad Əlizadənin rəhbərliyi ilə bir neçə qrupun taktiki hazırlığı üzrə dərs keçirildiyi əraziyə gəldik. Qrup komandirləri tabeliyində olan əsgərlərə döyüş zamanı müxtəlif dağlıq, düzənlik, meşə və s. ərazilərdə döyüş düzülüşünü izah edirdilər. İlk baxışdan Nihad mənə bacarıqlı zabit təsiri bağışladı.

Məlum oldu ki, o, Azərbaycan Dillər Universitetini "İngilis dili müəllimi" ixtisası üzrə bitirib. Müharibədən əvvəl müddətli həqiqi hərbi xidmətdə olub. 2021-ci ilin əvvəlində "Ehtiyat zabit hazırlığı" kursu keçərək "leytenant" rütbəsində xidmətə başlayıb. Bu illər ərzində qazandığı və yiyələndiyi hərbi bilikləri tabeliyində olan şəxsi heyətə həvəslə aşılayır.

Qrup üzvlərindən əsgər David Məmmədov Qusar rayonundan xidmətə çağırılıb. Yanvar ayında bir ili tamam olacaq. İşğaldan azad edilmiş ərazilərdə xidmət etməkdən qürur duyduğunu deyir. İkinci Qarabağ müharibəsi dövründə orta məktəbdə oxuduğunu, döyüşlərin nəticələrini hər gün maraqla izlədiyini, hər dəfə dövlət başçısı ordumuzun azad etdiyi kəndlərin, şəhərlərin adlarını sadalayanda sevincinin yerə-göyə sığmadığını bildirdi. Bu gün bir əsgər olaraq üzərinə düşən vəzifə borclarını həvəslə öyrənib icra etdiyini deyir.

Bölmədə xidmət edən hər bir əsgər mövzuya uyğun taktiki çalışmaları böyük həvəslə mənimsəyir. Onlar bilmədiklərini, yaxud öyrənməkdə çətinlik çəkdiklərini komandirlərdən öyrənirlər. Vətənimizin müxtəlif bölgələrindən gələn əsgərlər burada tanış olduqları silahdaşları ilə gələcəkdə də dostluq münasibətlərini davam etdirəcəklərini bildirdilər. Əsgərlərdən Cəlal Hacıyev Laçın rayonundan olsa da, Bərdədə doğulub boya-başa çatıb. Laçın rayonu otuz ilə yaxın erməni işğalı altında olduğu üçün orada heç vaxt olmadığını, ancaq gələcəkdə ata-baba yurduna köçüb orada yaşayacağını dedi. Əsgər İsmiəli Mahmudov Gəncədən, Zaur Qurbanov Sumqayıtdan, Rəvan Səfərəliyev Şamaxıdan, Ruhin Kazımov Göranboydan, Sənan Hümbətov Salyandan, Ramal İsmayılov Bakı şəhərindən xidmətə çağırılsalar da, məqsədləri, amalları birdir - Vətən qarşısında övladlıq borcunu şərəflə, ləyaqətlə başa vuraraq doğmalarının yanına başıuca qayıtmaq.

Əsgər Elvin Cəbrayılov digər silahdaşlardan yaşca böyükdü. O, həm ali təhsillidi, həm də hərbi bilikləri qısa zamanda mükəmməl mənimsəməklə digər silahdaşlarını bir qədər önləyə bilib. Şəmkir rayonundan olan Elvin Azərbaycan Texnologiya Universitetində bakalavr, Azərbaycan Texniki Universitetində isə magistr təhsilini alıb. İlk gündən hərbi xidmətini vicdanla yerinə yetirib komandir və əsgər yoldaşlarının rəğbətini qazanmağı qarşısına məqsəd qoyub. Elvin dedi ki, hərbi xidmət müddətinin yarısını geridə qoyub. Bu müddət demək olar ki, hərbi nizamnamələri, taktiki və digər hazırlıqlarını öyrənməklə keçib. Sələflərinin ənənələrini yaşatmaq və davam etdirmək başlıca məqsədidir.

Əsgərlər taktiki təlimləri öyrənməkdə davam edirlər. Onların icra etdikləri hər bir çalışma fərdi döyüş hazırlığının artırılmasına, sonda isə bölmənin döyüş qabiliyyətinin artırılmasına xidmət edir. Əsgərlər verilən hər bir komandanı səylə yerinə yetirməklə yüksək döyüş vərdişlərini nümayiş etdirməyə çalışırlar.

Füzulidən Cəbrayıla uzanan qoşa yol da müharibədən sonra çəkilib. Bu yol bizi həm də mənzil başına, ən gərgin döyüşlərin getdiyi Hadrut qəsəbəsinə aparır. Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan bu qəsəbə artıq doğma sakinlərinin tam ixtiyarındadı. Üç yandan dağlarla əhatə olunmuş əsrarəngiz təbiətə və relyefə malik olan bu ərazi sözün əsl mənasında təbiət möcüzəsidir.

**Bəxtiyar ƏLİYEV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Baş Direktor NATO nümayəndələri ilə görüşüb



NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən keçirilən "15-ci NATO günləri" tədbiri çərçivəsində Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov ölkəmizdə səfərdə olan Müttəfiqlərin Avropadakı Ali Komandanlığı (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bruasdal Gunnsteinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə hər iki tərəf arasındakı münasibətlərin cari vəziyyəti yüksək qiymətləndirilib və qurulan əlaqələrin bundan sonra da inkişafı üçün perspektivdə duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) və digər proqramlarında iştirak edən hərbi qulluqçularımızın fəaliyyəti yüksək qiymətləndirilib. Bundan sonra da müxtəlif təlim və kurslarda iştirak edəcək hərbi qulluqçular arasında təcrübə mübadiləsinin və özünü təkmilləşdirmənin vacibliyi xüsusi vurğulanıb.

Tərəflər arasında keçirilən görüş əsnasında münasibətlərin inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.



# Hərbçilərimizin güvən dolu ayaq səsləri

Zamir Ədalət oğlu Sadıqov həyatını müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunması uğrunda müqəddəs vəzifələri yerinə yetirməyə həsr edən igidlərdən biridir. 18 avqust 1988-ci ildə dünyaya göz açan Zamir hələ gənc yaşlarından Vətənə dərin sevgi və sadiqlik ruhu ilə böyüyüb. Uşaqlıqdan hərbçi olmaq onun ən böyük arzusu olub. Bu böyük arzu və sonsuz Vətən sevgisi illər sonra onu güclü, qətiyyətli bir komandirə çevirib. Bu gün Zamir Sadıqov ordumuzun peşəkar zabitlərindəndir. O, işğaldan azad olunmuş ərazilərimizdə yerləşən "N" hərbi hissəsində xidmətini şərəflə, uğurla davam etdirir. Özünün də dediyi kimi, bu onun üçün təkcə bir vəzifə deyil, həm də həyat məqsədi, əbədi bir missiyadır.

Zamir Sadıqov ilk hərbi təhsilini 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə alıb. Daha sonra 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut), 2010-2011-ci illərdə isə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təhsil alıb. Hər zabit kimi onun da xüsusi təyinatlı təhsil müəssisələrində qazandığı hərbi biliklər gələcək karyerasının və xidmət yolunun təməli olub. Həmçinin zabitin keçdiyi müxtəlif kurslar onun hərbi biliklərini daha da zənginləşdirib, müxtəlif döyüş əməliyyatları üzrə taktika və strategiyaları öyrənməsinə imkan yaradıb.

Zamir Sadıqov Azərbaycan Ordusunun Zəfərlə tamamladığı uğurlu döyüş əməliyyatlarının iştirakçısı olub. Bu əməliyyatlar zamanı o, peşəkarlıq, cəsarət, şəxsi igidlik göstərərək, tabeliyində olan şəxsi heyətlə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirib.



Söhbət əsnasında mayor Z.Sadıqov iştirak etdiyi döyüşlər haqqında danışdı: "Döyüşünürəm ki, hərbçi üçün döyüş meydanında keçirtdiyi hisslər onun yaddaşında dərin və silinməz izlər buraxır. Döyüşlər zamanı şəxsi heyətin Vətən sevgisi və düşməni məğlubetmə əzmi biz komandirlər üçün ən böyük motivasiya idi. Həmin günlərdə biz təkcə fiziki bir mübarizə aparmırdıq, ruhən də düşmənə qarşı döyüşürdük. Orada keçirdiyimiz hissləri izah etmək çətindir - hər an torpaqlarımızın azadlığı üçün canımızdan keçməyə hazır idik. 44 günlük Vətən müharibəsindəki Böyük Qələbəmizlə dövlətimizin qüdrətini, ordumuzun rəşadətini, vətənpərvərlik ruhumuzu bütün dünyaya göstərdik. Bu ruhu bizə, əlbəttə ki, Ali Baş Komandanımız cənab İlham Əliyevin liderliyi və qətiyyətli mövqeyi aşıladı. Müzəffər Ali Baş Komandanın səyi və qətiyyəti nəticəsində xalqımız bir yumruq kimi birləşərək torpaqlarımızın işğaldan azad olunmasına nail oldu".

Zabit bu gün tabeliyində olan gənc komandirlərə nümunə olur, şəxsi heyətə döyüş təcrübələrini aşılayır, onların şərəfli xidmətlərinin öhdəsindən uğurla gəlmələri üçün bütün bilik və bacarıqlarını səfərbər edir. Müstəqilliyimiz və suverenliyimiz uğrunda öz canını fəda edən igid oğullarımızın döyüş yolunu, vətənpərvərliyini hər kəsə nümunə göstərir.

Vətənə xidmət, Vətən sevgisi, Vətən uğrunda canını fəda etmək - bunlar mayor Zamir Sadıqov kimi minlərlə hərbçimizin həyat amalıdır. İşğaldan azad olunmuş əzəli torpaqlarımızda belə igidlərimizin ayaq səsləri eşidildikcə, bir daha əmin olursan ki, ölkəmizin təhlükəsizliyi, ərazi bütövlüyü güvənli əllərdədir. Əmin olursan ki, Azərbaycan Ordusu hər zaman güclü və qalib olaraq qalacaq, ərazi bütövlüyümüz və suverenliyimizin tam təmin olunması ilə nəticələnən Zəfərlərimiz qəhrəmanlıq dastanları kimi gələcək nəsillərə miras qalacaq.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Vətən sevgisinin qüdrəti

Əslən Tovuz rayonundanam. Uşaqlıqdan güllə səsləri eşitmişəm, hərbi formada gördüklərimi firavanlığımızın səbəbkarı bilmişəm. Elə uşaq yaşlarında bu peşəyə yiyələnməyi qarşıma məqsəd qoymuşam. İlk dəfə hərbi formanı əynimə hərbi xidmətim ərəfəsində əsgər kimi geyindim, həmin gün qürurlanmışdım. Həyatımda ən əlamətdar günlərdən biri idi. Bir tərəfdən uşaqlıq arzuma çatmağın verdiyi qürur, digər tərəfdən valideynimin qürurу mənim fəxarətimi daha da artırmışdı. Kəndimiz cəbhə bölgəsinə yaxın ərazidə yerləşdiyindən düşmənin atəşkəsi pozmasının qulaq şahidi olurduq. Gecənin bir çağında düşmən səbəbsiz yerə güllələr atır, guya bununla bizim iradəmizə təsir edəcəyini və ya qorxudacağını düşünürdü. Bu məkrli niyyətlər ilə mənfur qonşularımızın xain xislətini elə uşaq yaşlarımdan anlamışdım. Hərbçi olub, düşməni döyüş meydanında məğlub edəcəyimiz günün həsrəti ilə yaşayırdım. 2016-cı ilin Aprel döyüşləri zamanı ilk döyüş tapşırığımı aldım. Qəhrəman zabitimiz Şükür Həmidovun bizi döyüşə səslədiyi anlar xatirimdədir. Ordumuz qısa müddət ərzində düşmənin yaratdığı "keçilməz sədd" mifini darmadağın etdi. Bayrağımızın Lələtəpəyə şəhid olan qardaşlarımızın qisasının rəmzi idi. 44 günlük haqq savaşımız zamanı xidmət etdiyim hərbi hissə ərazilərimizin müdafiəsini təşkil etdiyi üçün əks-hücum əməliyyatında iştirak edə bilməsəm də, ruhum döyüş meydanındakı əsgər qardaşlarımın yanında idi. O günlərdə hər birimizin qəlbi Azərbaycan əsgəri ilə döyünürdü. Bu gün Vətənimiz tam azaddır, şəhidlərimizin qisası alınıb. Çünki bayrağımız bütün tarixi torpaqlarımızda, yurd yerlərimizdə dalğalanır. Bu gün artıq 12 ildən çoxdur ki, ordu sıralarındayam, uşaqlıqda həsrətində olduğum hərbi mundirdə Vətənimə xidmət edirəm. Müqəddəs amala - Vətənə xidmətimlə qürur duyuram.

Səngər xidmətinin vaxtı-vədəsi, istisi-soyuğu olmur. Bu dağlarda xidmət etmək böyük qürurdur. Vətən sevgisi qüdrətlidir. Vətən sevgisinin istiliyi bizə qışın sazağını, bu sevginin sərinliyi isə istinin bürküsünü hiss elətdirmir. İgidlər ünvanında silahdaşlarımla çiyin-çiyinə Vətənin keşiyində dayanmaqdan qürur duyuram. Vətən torpağımızın hər qarışını göz bəbəyimiz kimi qoruyuruq. Üçrəngli bayrağımızın daim zirvələrdə dalğalanması üçün əlimizdən gələni etmək bizim bu Vətənə övladlıq borcumuzdur. Odlar yurdu Azərbaycanımızı qorumaq onun tarixini, mədəniyyətini, adət-ənənəsini, milli-dəyərlərini qorumaqdır. Burada xidmət edən əsgərlərin də hər biri Vətəninə bütün varlığı ilə bağlı olan, müqəddəs amala xidmət edənlərdir. Onların Vətən sevgisi gözlərindən oxunur, sözlərindən duyulur. Vətəninə, xalqına sədaqət andı içən, onları göz bəbəyi kimi qorumağa söz verən əsgərlərimizin öz sələflərinin yolunu uğurla davam etdirəcəyinə, ata-babalarına layiqli övlad olacaqlarına inamımız sonsuzdur. Üzərində durduğumuz yer sadəcə torpaq deyil, bizə atalarımızdan miras qalan ən ali əmanətdir. Əsgərlərimiz bunu dərk edir. Dərk edir ki, bu torpaqların hər qarışı uğrunda qan tökülüb, can verilib. Bölməmizin şəxsi heyəti öz Vətəninə layiq, xalqına sadiq övladlardan ibarətdir. Baxışlarında qürurlu, sözlərində və əməllərində vətənpərvər, xidmətlərində məsuliyyətlidirlər. Komandirlərin və bizim üzərimizə düşən əsas vəzifə də əsgərlərimizi əsl döyüşçü olaraq yetişdirməkdir. Bölməmizin şəxsi heyəti öz vəzifə borcunun məsuliyyətini anlayır, xidmətini ayıq-sayıq, lazımi səviyyədə təşkil edir. Başqa cür ola da bilməz. Çünki səngər igid, vətənpərvər oğullar ünvanıdır. Burada dostluqlar da möhkəm olur.



Qarşıdan qış fəsli gəlir. Havanın daha da şaxtalı olması bizi narahat etmir. Sosial-məişət şəraitimiz yüksək, qidalanmamız arzuolunandır. Buradan əsgər valideynlərinə səslənirəm ki, övladlarına görə nigaran qalmasınlar. Onların həm xidməti, həm də gündəlik fəaliyyətini düzgün təşkil etməsi üçün lazımi şərait yaradılıb. Hər bir əsgər bizim ailəmizin bir üzvüdür. Əsgər Vətən əmanətidir, yurd əmanətidir. Biz də Vətən övladı olaraq gənc müdafiəçilərimizə hər zaman yüksək diqqət göstərir, onların qayğı və problemləri ilə daim maraqlanır, həlli istiqamətində öz dəstəyimizi göstəririk. Onların hər birinə öz xidmətlərini uğurla başa vurub, komandirlərinə və ailələrinə başucalığı gətirmələrini arzu edirəm.

**Kiçik çavuş**
**Asif QƏNİYEV**
**"N" hərbi hissəsi**

# Milli Müdafiə Universitetində Türkiyə nümayəndə heyəti ilə görüş keçirilib



Dekabrın 3-də Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Müdafiə Sənayesi Direktorluğunun Müdafiə Sənayesi Akademiyasının sədri professor Cenk Aktaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, Türkiyə nümayəndə heyətinə Milli Müdafiə Universitetinin yaranma tarixi, təhsil sistemi və əsas fəaliyyət istiqamətləri ilə bağlı brifinq təqdim olunub, Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan uğurlu islahatların müsbət nəticələri barədə ətraflı məlumat verilib.

Görüşdə hərbi təhsil sahəsində qarşılıqlı maraq doğuran məsələlərə dair geniş fikir mübadiləsi aparılıb. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.



# BMTM-in sədri: Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərini müdafiə edib

*Beynəlxalq hüququn selektiv tətbiqi və ikili standartların geniş yayılması səbəbindən dünya düzəni təhlükə altındadır.*

Bu barədə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin (BMTM) sədri Fərid Şəfiyev Mərakeşin Tanjer şəhərində keçirilən 16-cı MEDays forumunda söyləyib.

BMTM-in sədri bildirib ki, 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan ikili standartlar siyasətinin təzahürləri ilə üzləşməli olub. İşğala məruz qalan Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərini müdafiə edib.

Fərid Şəfiyev Azərbaycan xarici siyasətinin prioritetlərinə də toxunub: "1990-cı illərin əvvəllərində biz tez-tez Avroatlantik məkanına inteqrasiya barədə danışırdıq. İndi isə biz qoşulmama statusunu seçmişik. Qonşuluğumuzda baş verən bütün geosiyasi hadisələr, - 2008-ci ildə Gürcüstanda baş verənlər və Ukraynadakı müharibə, - ikili standartların əsl mənzərəsini ortaya qoydu. İkili standartlar dövlətlər arasında ayrıcı xətləri dərinləşdirir".

Beynəlxalq münasibətlərin hazırkı vəziyyətinə toxunan BMTM sədri dünyanın "Qərb və digərləri" kimi iki hissəyə bölünməsinin korrekt yanaşma olmadığını qeyd edib. Vurğulayıb ki, "soyuq müharibə" dövründən fərqli olaraq dünya indi çoxqütblüdür: "Çox sayda regional və qlobal güclər meydana çıxır. Azərbaycan həm Qoşulmama Hərəkatına sədrliyi dövründə, həm də sonra Qlobal Cənubun gündəmini diqqətdə saxlayıb. Çağırışlara həll yolu olaraq mən çoxtərəfliliyin gücləndirilməsinin və iqtisadi dekolonizasiyanın aparılmasının zəruriliyini qeyd etmək istərdim".

**AZƏRTAC-ın materialları əsasında**

# Vətən naminə...

*1993-cü ilin payızında Gədəbəydə ezamiyyətdəydik. Alagöllərdə əsgərlərlə döyüşənlərdən danışmışdıq, döyüşlərdən danışmışdıq, Başkəndin ermənisizləşdirilməsindən danışmışdıq, qəhrəmanlardan danışmışdıq, kimya elmləri doktoru olan bir gədəbəyli kişinin Gədəbəyin müdafiəçilərinin sırasına gəlişindən, döyüşlərdə iştirakından danışmışdıq. Bir də Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovdan danışmışdıq...*



İmperiya Türkiyə ilə sərhəd yaxınlığına görə (səbəb kimi belə deyilirdi, gerçək səbəb nə idi?) Axısqada yaşayan türkləri 1944-cü il noyabrın 14-də bir gecənin içində Qazaxıstana, Qırğızıstana, Özbəkistana, Azərbaycana köçürdü. Köçürmənin mahiyyəti sürgün idi. Köçürülənlər məskunlaşana kimi günlərlə əzablar yaşadılar, məskunlaşandan sonra doğmalıqdan iraq düşmənin sıxıntısını yaşadılar. Azərbaycana köçürülənlər doğmalıqla əhatələnmişdilər, digərlərinin ruhunun çırpıntısı aramlaşmırdı...

Söhrab Aznaurov bölgüyə görə Buxara vilayətində, Qala-Asiya kəndində məskunlaşdı. Yurd olmaq çətindi, ata yurdunun istisindən iraq düşənlər, ata yurdunun mehrindən uzaqlaşmağın qəhərindən ürəyi burxulanlar yeni yurda Vətən demir, deyə bilmir; hamısının ruhunda Axısqa vardı, Axısqa həsrəti vardı...

Söhrab 1956-cı ildə anadan olan oğluna İsgəndər adı verdi. Niyyətli ad idi. Bu advermədə ata yurdunun həsrəti duyulurdu...

İsgəndər oxudu, təhsil aldı, işlədi. Və günlərin birində səbəbi SSRİ Dövlət Təhlükəsizlik Komitəsi və çox yüksək vəzifəli məmurlara məlum olan Fərqanə hadisələri başladı. 1989-cu il iyulun 1-dən 5-nə kimi davam edən hadisələr özbəklərin Axısqa türklərinə qarşı çox qəddarlıqla həyata keçirdiyi siyasi aksiya idi. Axısqa türkləri Özbəkistanı tərk etməyə məcbur oldu. On minlərlə Axısqa türkü Azərbaycana pənah gətirdi. İsgəndər Aznaurovun ailəsi də onların sırasındaydı. Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşan İsgəndər cihazqayırma zavodunda işləyirdi.

Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başlayanda İsgəndər könüllü olaraq Gədəbəyə gəldi, təkidlə hərbi xidmətə başladı. Şınıx bölgəsində. Artilleriyanı bilirdi, topun istismar xüsusiyyətlərinə bələd idi. Artilleriyaçı oldu İsgəndər. Onu Topçu İsgəndər kimi tanıdılar. Baş leytenant idi Topçu İsgəndər...

Başkənd əməliyyatı müharibə tariximizdə əhalinin qələbəyə inamını artıran, ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu yüksəldən uğurlu (və son dərəcədə gərəkli!) əməliyyatlardan biri olub. Bu əməliyyatda İsgəndər Aznaurovun topçularının dəqiq atəşləri düşmənin müdafiə sistemi dağıdıb, Eldar Salmanovun rəhbərliyi ilə tankçılar bölüyü və xüsusi təyinatlılarımız, piyadalarımız əməliyyatı qələbə ilə tamamlayıb.

"Mutudərə", "Ərdağı", "Kaftar qayası", "Ləzgi daşı" əməliyyatlarında da Topçu İsgəndərin rəhbərliyi ilə topçular sərrast atışlarla düşmən xeyli texnikasını, canlı qüvvəsini məhv edib...

1993-cü ilin bir gününü, bir söhbətini xatırlayıram. Bir ananın hekayətini:

Bir Ananın hekayəti:

Allah mənə övlad verməmişdi. İllər sonra İsgəndərə ana oldum. Evimin işığıydı İsgəndər. Döyüşə yola salanda da, evə qayıdanda da qoşa qollarım kürəyində çarpazlaşırdı. Ayın 18-də səhərə yaxın gəldi. Yuxusuz idi, yorğun idi. Xəstələnmişdi. Dadar-doymaz çörək yedi. Dan yeri sökülənə yaxın atışma səsləri eşidildi. Eşiyə çıxdım. Qapını çöldən bağlayıb uzaqları xeyli dinşədim. Otaqdan səs gəlmirdi. Ürəyimə nəsə damdı. İçəri keçəndə İsgəndəri otaqda görmədim. Pəncərədən düşüb gedibmiş. Dözə bilmədim. Həyətdə var-gəl edə-edə "dağı arana daşıdım, aranı dağa". Neçə saatlar keçdi. Bu saatlar ömrümü sıxırdı...

Oğlum İsgəndər Örükdaşda həlak oldu. Şəhid oldu balam, İsgəndərim...

Zabitlər deyirdilər ki, İsgəndər Aznaurov minalanmış sahəni keçib, döyüşlərin ən gərgin yerinə gəlib. Topun yanına. Atışı özü aparmaq istəyib. Və düşmənin mərmisi topun yaxınlığına düşüb...

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə İsgəndər Aznaurova "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi...

Axısqa İsgəndər Aznaurovun ata yurdu idi, hökumət ocaqlarını söndürdü, Özbəkistanda Qala-Asiya kəndi ona Vətən olmadı. Azərbaycana gəldilər. Azərbaycanda mehr-ülfət gördülər, əl ələ isindi, söz sözə söykəndi.

Müharibə başlamışdı. İsgəndər də döyüşən ordunun sıralarındaydı. Baş leytenant idi Topçu İsgəndər. Mutudərə də yüksəklik vardı, bu yüksəklik düşmənin mövqelərinin qarşısındaydı. İsgəndər burdan düşmənin mövqelərini vaxtaşırı, komandirin əmri ilə atəşə tuturdu. Sonralar bu yüksəkliyi İsgəndər qalası adlandırdılar. O qala həmin vaxtlarda İsgəndərin ürəyindən boylanırdı döyüş üzünə. İsgəndərin özünü görəmmədim, adına ad olan qalanı gördüm, izini gördüm. Hər dəfə Gədəbəyə gedəndə hərbi hissənin qarşısında büstünü görürəm. Hərbçilərin asudə vaxtlarda qəhrəmanın büstü ilə ünsiyyətini də görmüşəm. Bu ünsiyyət ehtiramdı, sevgidi. Çavuş Elvin Quliyev Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun büstü qarşısında nələr düşünür görəsən? - Şəhidləri ürəyimizdə yaşadırıq, Qəhrəman. Sən də Vətənimizin ərazi bütövlüyünün tam bərpa olunması üçün döyüşürdün. Vətən müharibəsində şəhidlərimizin ruhu da döyüşənlərin sırasında olub. Tarixi Zəfəri qazananlar sizin ruhunuzu döyüşçü ruhu bildi, ruh qardaşı bildi. Sənin və sizin döyüş yolunuzu bu günün əsgərləri sədaqətlə davam etdirir...

Hərbi hissədə hər gün Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovla asudə vaxtlarda neçə-neçə belə mükalimələşmə olur. Vətən naminə...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## *Hərbi tibb*

# Sağlamlıq uğrunda döyüşən cəngavərlər: Hərbi hospitalın fədakar həkimləri



*Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı müasir tibbi texnologiyalarla təchiz edilmiş, yüksək ixtisaslı kadrlarla komplektləşdirilmiş bir qurumdur. Bu hospital hərbi əməliyyatlar zamanı yaralanan, sülh dövründə xəstələnən hərbi qulluqçuların həyatını xilas etmək, onların sağlamlığını bərpa etmək və ağır hallarda cərrahi müdaxilələri həyata keçirmək üçün mühüm mərkəz funksiyasını yerinə yetirir.*

44 günlük Vətən müharibəsi zamanı hospitalın kollektivi fasiləsiz fəaliyyət göstərmişdir. Torpaqlarımızın azadlığı uğrunda aparılmış döyüşlərdə yaralanan hərbi qulluqçuların həyatı məhz burada xilas edilmişdir.

Müharibənin başlaması ilə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı tam səfərbərlik vəziyyətinə keçdi. Tibbi heyət gecə-gündüz xidmət etməyə başladı. Yaralanmış əsgərlərin daşınması, ilkin tibbi yardımın göstərilməsi və həyati təhlükənin qarşısının alınması vacib məsələlərdən biri idi. Vətən müharibəsi zamanı hospitalda çalışan tibb işçiləri böyük fədakarlıq nümunələri göstərdilər. Hər bir yaralı üçün özlərini məsuliyyətli hiss edərək, onların sağlamlığını bərpa etmək üçün əllərindən gələni etdilər.

Baş Klinik Hospitalın rəisi, tibb xidməti polkovniki Vüqar Mürsəlov bildirdi: "Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı 44 günlük Vətən müharibəsi zamanı göstərdiyi fəaliyyətlə tarixə düşmüşdür. Bu hospitalın kollektivi öz peşəkarlığı, qətiyyəti və vətənpərvərliyi ilə həm hərbçilərin, həm də cəmiyyətin dərin hörmətini qazanmışdır. Onların əməyinə verilən dəyər yalnız tibbi deyil, həm də milli qəhrəmanlıq nümunəsi kimi qəbul edilir. Müharibədə qazanılan qələbədə bu insanların rolu danılmazdır. Onlar yalnız yaraları sağaltmadılar, həm də ümidləri yaşatdılar".

Baş Klinik Hospitalın Travmatologiya və Bərpaedici cərrahiyə şöbəsinin fəaliyyəti ilə tanış olmaq üçün baş travmatoloq tibb xidməti polkovniki Eldəniz Hacıyevlə həmsöhbət olduq. O, şöbənin ümumi fəaliyyəti və xüsusilə hərbi əməliyyatlar zamanı göstərdiyi yüksək xidmətlər haqqında danışdı. "Müharibə zamanı travmatologiya şöbəsinin rolu misilsiz olub. Bu şöbə ən ağır yaralanmalarla üzləşən əsgərləri qəbul etdi. Güllə və qəlpə yaraları, əzilmələr, sümüklərin qırılması kimi ciddi travmalarla gələn yaralılara tibbi yardım göstərmək, onların həyatını xilas etmək bizim ən böyük vəzifəmiz idi. Şöbə ən müasir tibbi avadanlıq və texnologiya ilə təchiz olunub. İstər ilkin tibbi müdaxilə, istərsə də cərrahi əməliyyatlar sahəsində müasir standartlara uyğun xidmətlər göstərilirdi. Bizim əsas məqsədimiz hər bir əsgərin sağalması üçün əlimizdən gələni etmək idi. Bəzən həmin anlar ən çətin, stresli anlar olsa da, hər zaman bir-birimizə dəstək olaraq, bu çətin dövrdən müvəffəqiyyətlə çıxdıq", - deyə zabit qeyd etdi.

Travmatologiya şöbəsinin həkimi tibb xidməti polkovnik-leytenantı Bəhrəm Qurbanov şöbənin fəaliyyəti və təchizatı haqqında öz fikrini söylədi: "Elə bir əməliyyat yoxdur ki,



onu icra edə bilməyək. Xidmət etdiyim şöbə tam müasir rentgen cihazları, alətlər və dərmanlar ilə təmin edilib. Ağır diaqnoz ilə gətirilən hərbi qulluqçular burada müalicə aldıqdan sonra xidmətlərinə davam ediblər. Türkiyə Respublikasında 2023-cü ildə baş vermiş zəlzələ zamanı həmin yerə ezam olunan hərbi qulluqçulardan biri də mən idim. Zəlzələ bölgəsinə çatdığımız andan etibarən insanlara kömək etmək üçün bütün gücümüzlə çalışdıq. Xilas edilən şəxslərə ilkin tibbi yardımın, yaralılara lazımi tibbi xidmətlərin göstərilməsində həyətimizlə birlikdə fəal iştirak etdik. Hər birimiz üçün bu həm mənəvi bir məsuliyyət, həm də vicdani bir borc idi. O günlərdə gördüyüm həmrəylik və qardaşlıq mənə insanlığın necə güclü olduğunu bir daha göstərdi".

Vurğulamaq istəyirəm ki, tibb bacıları, səhiyyə sisteminin əsas sütunlarından biridir. Onların işi yalnız xəstələrə tibbi yardım göstərməklə kifayətlənmir, həm də xəstələrin ruh halını gücləndirən, onlara dəstək olan və şəfa tapmasına dəstək olan əsl igidlərdir. Hər bir tibb bacısının işində səbir, şəfqət və peşəkarlıq ön plandadır. Onlar hər zaman ağır iş şəraitində çalışaraq, həm fərdi, həm də kollektiv olaraq hərbi qulluqçularımızın sağlamlığının keşiyində inamla dayanırlar. Xəstənin rahatlığını təmin etmək onların sağlamlığına göstərilən diqqət və qayğıda əvəzsiz rol oynayır.

Sözügedən şöbənin baş tibb bacısı baş çavuş Samirə Hüseynova digər tibbi personal kimi Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı zamanı içdiyi anda sadiq qalaraq öz vəzifə borclarını layiqincə yerinə yetirdiyi üçün dəfələrlə təltif olunub. Həmçinin travmatologiya şöbəsinin tibb bacısı çavuş Xalidə İsmayılova Türkiyə Respublikasında 2023-cü ildə baş vermiş zəlzələ zamanı oraya ezam olunan hərbi qulluqçulardan biridir. Xalidə İsmayılova qardaş Türkiyə Respublikasında baş verən "Əsrin faciəsi" zamanı xəsarət alan türk qardaş və bacılarımıza ilkin tibbi yardım göstərilməsində, müayinə və müalicə olunmasında vəzifə borclarını layiqincə yerinə yetirdiyinə görə təltif olunub.

Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının kollektivi, xüsusilə Travmatologiya və Bərpaedici cərrahiyə şöbəsi həm Vətən müharibəsi, həm də digər hərbi əməliyyatlar zamanı yaralanan hərbi qulluqçuların həyatlarını xilas etməkdə əsl insanlıq nümunələri göstərmişdir. Onların gördüyü işlər yalnız tibbi xidmət deyil, həm də insanlara ümid olub, onları həyata qaytarmaqdır. Peşəkar tibb heyətinin yüksək səviyyəli fəaliyyəti və vətənpərvərliyi Azərbaycan Ordusunun sağlamlığını qorumaqla yanaşı, milli birlik və həmrəyliyin gücünü göstərmişdir. Onlar ağır şəraitdə belə öz vəzifə borclarını layiqincə yerinə yetirərək, hər bir xəstəyə şəfqət və peşəkarlıqla yanaşmışlar. Baş Klinik Hospitalın fəaliyyəti həm tibbi, həm də mənəvi cəhətdən cəmiyyət üçün əvəzolunmazdır. Onların əməyi milli tariximizdə bir parlaq səhifə olaraq həmişə xatırlanacaq və gələcək nəsillərə örnək olacaqdır.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

*Hər şəkil bir anın tarixidi. Bu bir an Vətənlə bağlıdırsa, onda dövlətçiliyimizin işığı varsa daha qürurla, daha böyük sevgilərlə tarixləşir, yaddaşlarda da belə qalır, tarixdə də. İllər keçir, bir anın xatirəsi bir ömrün işığına dönür. O anın yaddaşı da, bu şəkilin yozumu (və aşıladığı mahiyyət) də onu görənlərin düşüncələrində bu işığa heyrət, belə heyrətə qüdrət, belə qüdrətə məhəbbət, bu məhəbbəti yaradan (və yaşadan!) sədaqət deyir.*

# Şəkilin sözü



Payızın son ayıdı. Dağ rayonlarımızdan birində könlümüzə yatan bir ucalıqdayıq. Bu ucalıq Vətənə sevginin ucalığıdı - əsgərlər burada döyüş növbətçiliyi aparırlar. Bir az əvvəl döyüş növbətçiliyinə gedən əsgər demişdi ki, digər əsgər yoldaşlarım kimi mən də döyüş növbətçiliyi aparacağım mövqedə Vətənin döyünən ürəyi olacam. Bu ucalıqda uca niyyətlərin xidməti bizə də gözəl könül xoşluğu verir. Bu, gerçəkliyin inamıdı, bu inam həm də xalqımızın inamıdı; Vətən qorunur, sərhədlərimizin həndəvərlərində yad yellər əsməyəcək!..

Yağan yağış, qar burada döyüş növbətçiliyi aparan əsgərlərimizin döyüş növbətçiliyinə aparan cığırları döyəcləsə də, yayda Günəşin istisi bu cığırları tasalandırsa da, Azərbaycan əsgəri döyüş növbətçiliyində qarşı tərəfi dumanda da, çiskində də ürəyinin gözü ilə nəzarətdə saxlayır. Dumanda, çiskində dağlar, dağlıqlar boz dumana bürünsə də, qara dumanlar dərələr boyunca sürünsə də, düşmən Azərbaycan əsgərinin nəzarətindən yayına bilmir.

Dumanda-çiskində döyüş növbətçiliyindən qayıdan əsgərlərimizlə kəlmələşmişdik. Söz-sözə söykək ola-ola, söz sözü çəkə-çəkə İkinci Qarabağ müharibəsinə kimi döyüş növbətçiliyi aparanlarımızı xatırlamışdıq, İkinci Qarabağ müharibəsinin döyüşlərini xatırlamışdıq, qəhrəmanları xatırlamışdıq, üzü qarşı tərəfdə dağları bürüyən duman görmüşdük, dumanlığın aramla dağıldığını hiss etmişdik, dumanlığın bağrını yarıb göyün üzünə çıxan Günəşin şəfəqlərinin rənginin ecazkarlığı könlümüzü telləndirmişdi. Bu bənzərsiz ecazkarlığı Azərbaycan əsgərinin bu ucalıqda döyüş növbətçiliyinə xeyir-duası bildik. Təbiətin "dilini" bilənlər bu aydınlatmanın yozumunu da dərk edir: Dumanlıqlar aydınlığa belə çıxır, Günəş gərək, Günəş qüdrəti gərək!..

Dəniz səviyyəsindən min metrlərlə yüksəklikdə döyüş növbətçiliyi aparan əsgərlərimizin əhatəsində gözyoran, könül küsdürən dumanlığın belə dağılmasını görüncə 2020-ci il sentyabrın 27-də başlayıb noyabrın 10-da başa çatan İkinci Qarabağ müharibəsini, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfəri xatırladıq. Azərbaycan Ordusu bu müharibədə ermənilik dumanını dövlət sərhədlərimizin o üzünə kürüdü. Birdəfəlik - həmişəlik...

Kapitan Fuad Cəfərovun çəkdiyi bu kadr çəkildiyi anda görənlərə xoş gəlmişdi, hamıya da könül xoşluğu verəcək. Elə təbiətə də...

Azərbaycan Ordusu işğalın qara dumanlıqlarını qüdrəti ilə dağıtdı, göylərimizdən boz buludlar dağıldı, torpaqlarımız təkcə Günəşin zərrin şəfəqləri ilə deyil, həm də Azərbaycan əsgərinin, yenidən qurulan ərazilərə köçən sakinlərin doğma nəfəsləri ilə isinir. Bu da qüdrətdi, tarixi Zəfərdən sonra Azərbaycan əsgərinin vətənsevərliyindən boy göstərən tarixi qüdrətə görə bir əminlik yaşanılır: Azərbaycan əsgərinin işğaldan azad etdiyi ərazilərdə quruculuq Zəfərləri qazanılır!..

Bu şəkil deyir ki, sərhədlərimizin bu üzündə heç zaman ermənilik dumanı görünməyəcək! Heç zaman!..

Dağlar dumansız elə gözəl görünür ki!..

**"Azərbaycan Ordusu"**

# Hərbi təhsil ordu quruculuğunun yeni mərhələsində

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:**

*"Ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılması, peşəkarlığın artırılması, sağlam mənəvi mühitin yaradılması zabitlərimizin, Silahlı Qüvvələrimizin rəhbərlərinin müqəddəs vəzifəsidir".*

(Əvvəli 1-ci səhifədə)

Ordu quruculuğu prosesinə təsir göstərən amillərdən biri də dil problemi idi, bu problemi də hərbi təhsil aradan qaldıracaqdı. Sabiq SSRİ Silahlı Qüvvələrindən gələn, baza danışıq (və təhsil) dili rus dili olan zabitlərin əksəriyyətinin hərbi bilikləri qoşunlarda yeni xidmətə başlayan gənc zabitlərə, əsgərlərə, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına Azərbaycan dilində aşılaması müəyyən çətinliklər yaradırdı. Bu problem dövlətin ciddi nəzarəti ilə, görülən zəruri tədbirlərlə, Müdafiə Nazirliyi rəhbərliyinin yaratdığı metodiki şəraitlə, zabitlərin tədris prosesinə fərdi məsuliyyəti ilə qısa müddətdə bərpa olundu...

Dövlət müstəqilliyi bərpa edilənə kimi Azərbaycanda Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi, Xəzər Hərbi Dənizçilik Məktəbi və İbtidai Hərbi Məktəb fəaliyyət göstərirdi. Bu məktəblər Azərbaycan Respublikasının yuridiksiyasına keçdikdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə adları dəyişdirildi, addəyişmə ilə bir sırada təhsilin məzmununda yeniliklər də yarадıldı. Hərbi təhsil milli təhsil sistemi konsepsiyasının tələbləri səviyyəsində quruldu, Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Dənizçilik Məktəbi şəbəkəsinə Ali Hərbi Təyyarəçilik Məktəbi də daxil edildi, ibtidai hərbi məktəb hərbi lisey adlandırıldı, Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli Sərəncamı və müdafiə nazirinin 9 aprel 1998-ci il tarixli əmri ilə yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Heydər Əliyev adına Hərbi Lisey yaradıldı. Bu islahatlar hərbi təhsilin ordu quruculuğuna inteqrasiya prosesini optimallaşdırdı.

Nizami ordunun silahlanması, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Xüsusi təyinatlı təhsil müəssisələrində tədris prosesinin yeniləşdirilməsi, müasirləşdirilməsi, proqram materiallarının məzmun baxımından zənginləşdirilməsi, Türkiyənin xüsusi təyinatlı təhsil müəssisələrinin təcrübəsinin Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinə inteqrasiyası ordu quruculuğuna yeni məzmun gətirdi.

Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi-elmi işçilərin hazırlanması, onların ixtisasının artırılması, hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını, dövlət orqanlarında işləyən yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi, hərbi-siyasi məsələlərin öyrədilməsini, ordu quruculuğunun elmi əsaslarla aparılması üçün Hərbi Akademiyanın yaradılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 20 fevral 1999-cu il tarixli Fərmanı ilə Silahlı Qüvvələrin Hərbi Akademiyası yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ordu quruculuğunu dövlət quruculuğu üçün, dövlət üçün başlıca prioritet sahəyə çevirdi. Ordu quruculuğu digər şərtlərlə bir sırada qətiyyətlə inkişaf etdirildi. Nəticə etibarilə, ordu quruculuğunda hər mərhələ əvvəlki mərhələnin məntiqi, hərbi-elmi davamı oldu, Azərbaycan Ordusu dünyanın ən güclü ordularından biri kimi formalaşdı...

Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal edilən müdafiə təyinatlı yüzlərlə növ hərbi təyinatlı məhsullar ordunun silahlanmasına tətbiq olunurdu. Bu silahların istismarının mükəmməl öyrənilməsini də hərbi təhsil təmin edirdi. Kursantlar öyrənirdi, zabit olaraq qoşunlarda əsgərlərə aşılayırdı. Nəticə etibarilə, bu silahlar Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığı yüksəlirdi, ordunun döyüş imkanlarının yüksəlişi təmin olunurdu. İkinci Qarabağ müharibəsi ərəfəsində Azərbaycan Ordusunun arsenalında ən müasir döyüş sistemləri var idi ki, bu da Azərbaycan Ordusunun döyüş və müdafiə imkanlarını yeni bir mərhələyə yüksəltmişdi. Bu şərait ordu quruculuğunda müharibədən öncə əhəmiyyətli bir mərhələ oldu...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri yeni ərazilər işğal etmək niyyəti ilə irimiqyaslı təxribatlar törətmək istədi. Azərbaycan Ordusunun hissələri təxribatın qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın döyüş əmri ilə əks-hücuma keçdi. Bu əmr İkinci Qarabağ müharibəsinin başlanğıcı oldu. Dövlət başçımız müharibə dövründə "X" sosial şəbəkəsindəki paylaşımı ilə bu müharibənin ədalətli müharibə olduğunu qeyd etdi: "Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz...".

Ordu hissələrimiz düşmənin illərlə möhkəmləndirdiyi, yenilədiyi, təkmilləşdirdiyi mühəndis-istehkam sədlərini darmadağın etdi, döyüşə-döyüşə mövqe qələbələri qazandı. Döyüşlər, qələbələr həm də Azərbaycanın hərbi təhsil sisteminin döyüşləri, qələbələri idi - Azərbaycanda ali təhsil almış zabitlər də döyüşürdü, onların öyrətdiyi əsgərlər döyüşürdü, kursant taboru da döyüşürdü.

Noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildi. Noyabrın 10-da üçtərəfli bəyanat imzalandı. Bu sənədlə Azərbaycan rəsmən qalib, Ermənistan məğlub dövlət kimi tanındı...

Tarixi Zəfər Azərbaycanda ordu quruculuğunun yeni mərhələsini müəyyənləşdirdi.

2021-ci il iyunun 15-də Şuşada Azərbaycanla Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi mahiyyəti etibarilə hərbi müttəfiqlik sənədidir. Bəyannamə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri ilə bir sırada hərbi təhsili də əhatə edir.

Xüsusi təyinatlı təhsil müəssisələrində tədris prosesinin yeniləşdirilməsi, müasirləşdirilməsi, proqram materiallarının məzmun baxımından zənginləşdirilməsi, Türkiyənin xüsusi təyinatlı təhsil müəssisələrinin təcrübəsinin Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinə inteqrasiyası ordu quruculuğuna yeni məzmun gətirdi, tarixi Zəfərin müəyyənləşdirdiyi mərhələ oldu...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi zamanında böyük tarixi şəxsiyyət Heydər Əliyevin siyasi kursunun başlıca istiqaməti idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin siyasi kursuna sədaqət borcu kimi ordu quruculuğunu dövlət üçün prioritet səviyyəyə çatdırdı, ordu nizami ordu kimi tam formalaşdı, şəxsi heyətin döyüş hazırlığı artırıldı, yüksək döyüş hazırlığına malik oldu. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksəldildi, silahlanmada əsaslı dinamika yaradıldı, qoşun növləri, eləcə də ordu üzrə keçirilən müxtəlif təlimlər şəxsi heyətin döyüş hazırlığını yüksəldirdi. Yüksək hərbi təhsil olmadan yüksək döyüş hazırlığı formalaşdırmaq, onu saxlamaq mümkün deyil. Bu baxımdan, hərbi təhsildə həyata keçirilən ilkin islahatlar müəyyən təhsil nəticələri verirdi.

Tarixi Zəfərdən sonra Azərbaycanda ordu quruculuğunda böyük islahatlar aparıldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə 2022-ci ildə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradıldı.

Milli Müdafiə Universitetinə daxil olan tədris müəssisələri fəaliyyətini yeniləşdirilmiş tədris-metodiki üsul və metodlarla davam etdirir. Ordu quruculuğunun müasir mərhələsi zabit kadrları hazırlığında yeni prinsiplər tələb etdiyinə görə tədris prosesi həm də milliliyin tələbləri səviyyəsində təşkil olunur. Bu baxımdan, Azərbaycan dili və Ədəbiyyatı, Azərbaycan tarixi fənləri təkmilləşdirilmiş tədris proqramları ilə tədris olunur. Milli Müdafiə Universiteti Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri vasitəsilə orta ixtisas təhsilli və yüksək ixtisaslı mütəxəssislər, elmi və elmi-pedaqoji kadrlar hazırlayır, dövlət orqanlarının vəzifəli şəxslərinə hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini, hərb elmləri sahəsində elmi tədqiqat işlərinin aparılmasını və əlavə təhsil üzrə kadr hazırlığını təşkil edir.

Yenilənmiş tədris proqramları dövlətin müəyyənləşdirdiyi hərbi təhsil vəzifələrini uğurla yerinə yetirməsini təmin edəcəkdir.

"Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun tələblərinə əsasən, Milli Müdafiə Universitetində təhsilin pillə və səviyyələri tam orta təhsili, peşə və orta ixtisas təhsilini, ali təhsil bakalavr, magistr və adyunktura (doktorantura) səviyyələrini əhatə edir.

Azərbaycanda hərbi təhsili Milli Müdafiə Universiteti koordinasiya edir. Yeni yaradılan institutlar ayrılıqda Hərbi Akademiyanın funksiyalarının bir hissəsini yerinə yetirir. Onların fəaliyyəti, vəzifələri Elm və Təhsil Nazirliyinin və Milli Müdafiə Universitetinin Elmi Şuralarının birgə qərarı ilə müəyyənləşdirilib. Elmi tədqiqatlar tədqiqat institutları ilə koordinasiya formatında aparılır.

Azərbaycan Ordusunun NATO-ya inteqrasiyası da bilavasitə hərbi təhsil vasitəsilə həyata keçirilir. İstər yeni, müasir silahların öyrənilməsi, istismar xüsusiyyətlərinin mənimsənilməsi baxımından, istərsə də əməkdaşlıq üçün ingilis dilinin aşılanması baxımından...

Azərbaycanda hərbi təhsil bu gün də dövlət üçün prioritetdir, ordu quruculuğu prosesinin dönməzliyini əhatə edən səviyyədə təşkil olunub. Hərbi təhsil Azərbaycan Respublikası Prezidentinin, Müdafiə Nazirliyinin rəhbərliyinin tələb və göstərişləri əsasında daha da mükəmməlləşdiriləcəkdir...

Yeniyetmələrin, çağırış yaşlı gənclərin hərbi təhsilə marağını yüksəltmək məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir və bu proses davam etdiriləcəkdir. Mahiyyəti vətənpərvərlik duyğularının yüksəldilməsinə yönəldilmiş belə tədbirlər hərbi təhsilə marağı artırmaqla zabit kadrları hazırlığı prosesini də dönməzləşdirəcəkdir...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "...Milli dəyərlərimizə münasibətimiz həmişə çox yüksək səviyyədə olmuşdur. Bu gün də gənc nəslin tərbiyə olunmasında, formalaşmasında və Azərbaycanın uzunmüddətli, dayanıqlı, müstəqil ölkə kimi yaşamasında milli dəyərlərə bağlılığımız müstəsna rol oynayır. Mən çox istəyirəm ki, bizim bütün ali məktəblərdə gənclərimiz yüksək peşəkarlıqla yanaşı, məhz milli dəyərlərimizi unutmasınlar". Dövlət başçısının bu tövsiyəsi hərbi təhsildə də sədaqətlə yerinə yetirilir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

---

## "Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərini müdafiə edib"

Beynəlxalq hüququn selektiv tətbiqi və ikili standartların geniş yayılması səbəbindən dünya düzəni təhlükə altındadır.

AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin (BMTM) sədri Fərid Şəfiyev Mərakeşin Tanjer şəhərində keçirilən 16-cı MEDays forumunda söyləyib.

BMTM-in sədri bildirib ki, 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan ikili standartlar siyasətinin təzahürləri ilə üzləşməli olub. İşğala məruz qalan Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərini müdafiə edib.

Fərid Şəfiyev Azərbaycan xarici siyasətinin prioritetlərinə də toxunub: "1990-cı illərin əvvəllərində biz tez-tez Avroatlantik məkanına inteqrasiya barədə danışırdıq. İndi isə biz qoşulmama statusunu seçmişik. Qonşuluğumuzda baş verən bütün geosiyasi hadisələr, - 2008-ci ildə Gürcüstanda baş verənlər və Ukraynadakı müharibə, - ikili standartların əsl mənzərəsini ortaya qoydu. İkili standartlar dövlətlər arasında ayrıcı xətləri dərinləşdirir".

Beynəlxalq münasibətlərin hazırkı vəziyyətinə toxunan BMTM sədri dünyanın "Qərb və digərləri" kimi iki hissəyə bölünməsinin korrekt yanaşma olmadığını qeyd edib. Vurğulayıb ki, "soyuq müharibə" dövründən fərqli olaraq dünya indi çoxqütblüdür: "Çox sayda regional və qlobal güclər meydana çıxır. Azərbaycan həm Qoşulmama Hərəkatına sədrliyi dövründə, həm də sonra Qlobal Cənubun gündəmini diqqətdə saxlayıb. Çağırışlara həll yolu olaraq mən çoxtərəfliliyin gücləndirilməsinin və iqtisadi dekolonizasiyanın aparılmasının zəruriliyini qeyd etmək istərdim".

---

**Hesabat:**

## Niyə Ermənistanın müasir ərazilərində azərbaycanlılar yoxdur?

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) Avrasiya Araşdırmaları Mərkəzi (AVİM) ilə birlikdə "Niyə Ermənistanın müasir ərazilərində azərbaycanlılar yoxdur?" sərlövhəli ingilis dilində hesabat hazırlayıb.

Hesabatın "Tarixə baxış" bölməsində bugünkü Ermənistan Respublikasının ərazisinin demoqrafik mənzərəsi hərtərəfli təhlil edilərək onun etnik tərkibinin erməni əhalinin xeyrinə süni olaraq dəyişdirilməsi ilə bağlı məlumatlar qeyd edilib. Yerli əhalinin əksəriyyətini təşkil edən azərbaycanlıların sayının zamanzaman dəyişikliyə məruz qalması ilə bağlı statistik göstəricilər əksini tapıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulu davam edir

Azərbaycan Ordusunda "Motoatıcı" və "Komando" (Quru Qoşunları üzrə) ixtisasları üzrə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbulu **davam edir.**

Ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər **cari ilin dekabr ayının 20-dək** Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə qəbul komissiyası tərəfindən Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən, hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunur.

**Namizədlər qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidir:**

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- şəxsiyyət vəsiqəsinin surəti (1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (şəxsiyyət vəsiqələri olmadıqda doğum haqqında şəhadətnamələrin surəti, 1 nüsxədə);
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə).

**Sənədlərin qəbulu həyata keçiriləcək ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Eldar Ağayev küçəsi 126 (Bakı Hərbi Məhkəməsinin yanı).

**Müraciət etmə vaxtı:** Dekabrın 20-dək, saat 09:00-dan 17:00-dək (bazar günləri istisna olmaqla).

**Qeyd:**

1. Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

2. "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirmiş şəxslərin təyinatı Quru Qoşunlarının ehtiyaclarına uyğun vakant vəzifələrin komplektləşdirilməsi üzrə həyata keçiriləcək.

# Xəbərlər: hadisələr, faktlar

### Ərdoğan: Türkiyə Suriyadakı hadisələri diqqətlə izləyir



Türkiyə Suriyadakı hadisələrin gözlənilməz dönüşünü çox diqqətlə izləyir.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Monteneqro lideri Yakov Milatoviçlə birgə mətbuat konfransında bildirib.

Türkiyə liderinin sözlərinə görə, Ankara regionda gərginliyin azaldılması üçün bundan sonra da əlindən gələni etməyə hazırdır.

"Biz Suriya xalqının qanuni tələbləri fonunda ərazi bütövlüyünün qorunması və Suriyada 13 ildir davam edən sabitliyin pozulması dövründən çıxış yolu nəzərə alınmaqla razılıq əldə etməyə ümid edirik", - deyə o bildirib.

Siyasətçi vurğulayıb ki, Ankaranın prioriteti Türkiyənin özünün milli təhlükəsizliyidir. "Biz hadisələrin arzuolunmaz gedişinin qarşısını almaq üçün bütün lazımi addımları atırıq", - deyə Ərdoğan əmin edib.

### ABŞ və Ukrayna müdafiə nazirləri arasında telefon danışığı olub



ABŞ-ın müdafiə naziri Lloyd Ostin ilə ukraynalı həmkarı Rustem Umerov arasında telefon danışığı olub.

Bu barədə Pentaqonun mətbuat katibi Patrik Rayder bildirib.

Məlumata görə, tərəflər hərbi əməliyyatların dinamikası və ABŞ-ın Ukraynaya yardımını da müzakirə ediblər.

Pentaqon, həmçinin Ukraynada orta mənzilli ballistik raketin istifadəsini pisləyib.

Bundan əlavə, ABŞ Kiyevə 725 milyon dollarlıq yeni hərbi yardım ayırıb.

### Ukrayna 2025-ci ildə müharibə üçün Qərbdən 120 milyard dollar istəyib



Ukrayna Qərb müttəfiqlərinə 2025-ci ildə hərbi əməliyyatları davam etdirmək üçün azı 120 milyard dollara ehtiyacı olduğunu bildirib.

Bu barədə ANSA agentliyi NATO-dakı mənbəyə istinadla məlumat yayıb.

Məlumata görə, bu, Vaşinqtonda keçirilən alyans sammitində razılaşdırılan 40 milyard dollardan xeyli çoxdur. Bu məsələ Brüsseldə Ukrayna xarici işlər nazirinin iştirakı ilə keçiriləcək Ukrayna-NATO Şurasının növbəti iclasında qaldırıla bilər.

Həmçinin qeyd edilib ki, Ukrayna yaxın günlərdə rəsmi olaraq NATO-ya heç bir rəsmi dəvət almayacaq, çünki XİN rəhbərləri dövlət və hökumət başçıları səviyyəsində qərar qəbul edilməmişdən əvvəl bunu tövsiyə edə bilməzlər. "Müzakirələr hələ də davam edir və hələlik heç bir qərar yoxdur", - mənbə ANSA-ya bildirib.

### Britaniya miqrantların deportasiyası ilə bağlı uğursuz plana 904 milyon dollar xərcləyib



Böyük Britaniya səlahiyyətliləri qeyri-qanuni miqrantların Ruandaya deportasiyası üçün heç vaxt həyata keçirilməyən plana təxminən 904 milyon dollar xərcləyib.

Bu barədə Britaniya hökumətinin saytında məlumat verilib.

Məlumata görə, Böyük Britaniya Daxili İşlər Nazirliyi bu məbləği 2022-ci ilin aprelindən cari ilin iyununa qədər olan müddətdə xərcləyib.

O, qeyd edildiyi kimi, Ruandanın iqtisadi inkişafını, miqrantların qəbulu və yerləşdirilməsi prosesini dəstəkləmək, Ruandaya uçuşların təhlükəsizliyini təmin etmək və yerləşdirmə mərkəzlərini optimallaşdırmaq üçün nəzərdə tutulan pulları əhatə edir.

Aydınlaşdırılır ki, iyulun 6-da ölkənin yeni hökuməti qeyri-qanuni mühacirləri Ruandaya qovmaq planlarından imtina etdiyini bəyan edib.

Bundan əvvəl "Telegraph" qəzeti yazıb ki, Britaniya qeyri-qanuni miqrantların sayına görə Avropada birinci yerdədir.

**AZƏRTAC-ın materialları əsasında**

Həsənov Əlövsət Zülfiqar oğluna məxsus MV № 088469 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# İdman

### Azərbaycan klubu amerikalı basketbolçu ilə müqavilə imzalayıb



"Neftçi" basketbol klubu heyətini daha bir amerikalı oyunçu ilə gücləndirib.

198 santimetr boya malik Polayt Edvard Leon komandaya cəlb olunub.

Onunla mövsümün sonunadək rəsmi müqavilə imzalanıb.

### Sumqayıtda Uşaq Paralimpiya Oyunları keçiriləcək



Milli Paralimpiya Komitəsinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Sumqayıt Paralimpiya İdman Kompleksində Uşaq Paralimpiya Oyunları keçiriləcək.

Dekabrın 7-də təşkil ediləcək Oyunlarda 130-dan çox uşaq 6 idman növü üzrə (paracüdo, parataekvondo, parapauerliftinq, paraüzgüçülük, parastolüstü tennis, boccia) müxtəlif kateqoriyalarda mübarizə aparacaq.

Uşaq Paralimpiya Oyunlarının keçirilməsinin əsas məqsədi əlilliyi olan şəxslərin idmana cəlb olunması ilə Azərbaycanı beynəlxalq arenalarda layiqincə təmsil edəcək yeni nəslin formalaşdırılmasıdır.

### Gürcüstandan olan güləşçimiz beynəlxalq turnirin qalibi olub



Gürcüstanın Kutaisi şəhərində 15 və 17 yaşlılar arasında yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib.

Əməkdar idman ustası, ikiqat dünya və Avropa çempionu Teymuraz Apxazavanın xatirəsinə həsr olunmuş turnirdə Gürcüstan, Polşa, Macarıstan, Estoniya, Latviya, Litva və Ermənistandan olan 400-dən çox idmançı iştirak edib.

Turnirdə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin yetirməsi Hüseyn Mansurov 55 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlib.

H.Mansurov final görüşündə Ermənistandan olan rəqibini 9:0 hesabı ilə vaxtından əvvəl məğlub edərək 1-ci yerə layiq görülüb.

### Azərbaycanlı idmançı beynəlxalq fiqurlu konkisürmə yarışında qızıl medal qazanıb



Noyabrın 25-30-da Türkiyənin İstanbul şəhərində keçirilən "Bosphorus Cup" adlı yarışda Azərbaycanı beynəlxalq fiqurlu konkisürmə üzrə təmsil edən idmançımız Vladimir Litvintsev iştirak edib.

Bildirilib ki, Vladimir Litvintsev qısa və sərbəst proqram üzrə çıxışına görə 12 idmançı arasında 225.41 xal toplayaraq yekun nəticədə 1-ci yeri tutub və qızıl medala layiq görülüb.

Bununla yanaşı, yarışda Azərbaycanı yeniyetmə idmançılar Səbinə Əliyeva və Leyli Axundova təmsil edib.

Nəticədə 52 idmançı arasında Leyli Axundova 106.24 xalla 26-cı, Səbinə Əliyeva isə 106.12 xalla 27-ci yerdə qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenanat
Oruc MUSTAFAYEV

Lisenziya № 361
Sifariş № 750
Nüsxə 4650